Ədəbiyyat qəzeti

30 oktyabr / 2021

# Balaş Azəroğlunun anım günündə

Oktyabrın 28-də Nizami rayon Mərkəzləşdirilmiş kitabxana sisteminin Mərkəzi kitabxanasında xalq şairi Balaş Azəroğlunun 100 illik yubileyi münasibətilə xatirə tədbiri keçirildi. Bakı şəhər Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbiri kitabxananın direktoru Sevil Əliyeva açaraq B.Azəroğlunun o taylı-bu taylı Azərbaycanımızın yaddaş yazarı olmasından ətraflı bəhs etdi. Ədəbiyyatşünas alim Bahar Bərdəli, Azərbaycan Yazıçılar Birliyi sədrinin müşaviri Sayman Aruz, görkəmli şairin yaxın dostu Aqşin bəy, "Ədəbiyyat qə-



zeti"nin şöbə redaktoru Sərvaz Hüseynoğlu sözügedən kitabxananın baş biblioqrafı İ.Sadıqova, şöbə müdiri C.Nağıyeva və başqaları da Balaş Azəroğlunun ikiyə bölünmüş Azərbaycanın azadlıq mücadiləsinin alovlu, dönməz tərənnümçüsü olmasında ətraflı danışdılar.

Unudulmaz sənətkar, azadlıq nəğməkarının oğlu Etibar Abizadə atasının xatirəsini əziz tutan insanlara, tədbirin təşkilatçılarına, tədbirdə iştirak edənlərə dərin minnətdalığını bildirdi, xatirələrini bölüşdü.